Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

# Realist romanlar banisi Daniel Defo

**Daniel Defonun 355 illik yubileyi münasibəti ilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2015**

Tərtibçi: **Aynurə Əliyeva**

Redaktor və buraxılışa məsul: **Şəhla Qəmbərova**

**İngilislərin sərvəti : Daniel Defonun 355** illik yubileyi münasibəti ilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodiki vəsait /tərt. ed. A. Əliyeva; red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2015.- 25 s.

**F. Köçərli adına Respublika Uşaq Kitabxanası**

**2015**

## Tərtibçidən

### İngilislərin sərvəti

Ta qədim dövrlərdən bu günkü günümüzədək yaşamış məhşur yazıçıların, şairlərin adlarını çəkəsi olsaq bizə bir qəzet səhifəsi deyil cild- cild kitablar lazım gələcək. Bəli, ömürlərini bədii yaradıcılığa, qələmə həsr etmiş söz adamları çox olmuşdur.Və mən belə deyərdim, xoş o şəxsin halına ki, belə nəhənglərin kitablarını bacardığı qədər çox oxuya bilmişdir. Amma onu da etiraf etmək lazımdır ki, dəyərli söz adamları hər nə qədər olsa da, bəşəriyyət, cəmiyyət bütün dövrlərdə onların varlığına, insanlarda bədii zövqü formalaşdıran, mənəviyyatı zənginləşdirən istedad sahiblərinə həmişə ehtiyac duyub. Həmin ehtiyac elə bu gün  də var, yəqin ki, sabah da olacaq.  Çox maraqlıdır, bu istedadlar sırasında elələri də var ki, onların yaratdıqları obrazlar, qəhrəmanlar müəllifin öz adından, imzasından daha məşhur olub, yazıçının qəhrəmanı ilə tanıyıblar. Əminəm ki, Daniel Defo haqqında da, eşitməyən elə adamlar var ki, Robinzon Kruzodan daha çox şeylər danışa bilərlər. Ser Defo Robinzon Kruzo haqqında  yazdıqlarını təxminən dörd yüz ilə yaxındır ki, oxuculara tanıtdırır. Məncə tanıtmağa  hələ davam etdirəcək də.

## Ön söz

XVIII əsrin Avropa cəmiyyəti sosial-mədəni sfera kimi daha çox "maarifçilik epoxası" olaraq tanınır. Feodal içtimai-tarixi münasibətlərinin öz yerini burjua-kapital münasibətlərinə verməsi ilə səciyyələnən bu dövr sosial-iqtisadi həyatda olduğu kimi, içtimai-fəlsəfi fikirdə, o cümlədən bədii-estetik düşüncədə köklü yeniləşmələrə meydan açır. Maarifçilik dövrü ədəbiyyatının əsas istiqamətləri klassisizim, maarifçi realizm, sentimentalizm, erkən romantizm idi. Hər bir Avropa ölkəsində həmin istiqamətlərin yerli mühitdən doğan özünəməxsusluğu var. İngilis ədəbiyyatında bu dövrə Stil və Addisonun jurnalistik fəaliyyəti, Aleksandr Popun, Conatan Sviftin və Daniel Defonun yaradıcılığı aiddir. Yeni dövr Avropa realist romanının banisi Daniel Defo (1660-1731) hesab olunur. Onun yaradıcılığı ingilis nəsrinin təkamülündə bütöv bir dövrü əhatə edir. Maarifçilik romanı tarixində ilk pillə olmaqla bərabər, Defo yaradıcılığı XIX yüzillikdə sosial mühitin irimiqyaslı mənzərəsini əks etdirən realist romana yol açmışdır. D.Defo roman janrının macəra, bioqrafiya, psixoloji, tarixi və tərbiyəvi roman kimi rəngarəng növlərinin əsasını qoymuşdur. Onun yaradıcılığında bu formaların daxili strukturu hələ tam mükəmməlliyi ilə açılmasa da, məhz Defo onları özünəməxsus şəkildə işləmiş, roman janrının ümumi inkişaf xəttini müəyyənləşdirmişdir.

Ədəbi fəaliyyətə 1697-ci ildə başlayan D.Defo ilk çalışmalarını jurnalistika istiqamətində aparmış,"Layihələrə

dair təcrübə" (1697) əsərində bir sıra iqtisadi və içtimai islahatlar keçirilməsi ideyasını irəli sürmüş, vətəndaş azadlıqlarına dair broşüralar yazmışdır. O,1685-ci ildə kral Yakov əleyhinə hersoq Monmutun başçılıq etdiyi üsyanın iştirakçısı olmuşdur. 1688-ci ildə III Vilhelm siyasətini dəstəkləyən Defo kral III Vilhelm Oranlını "qeyri-ingilis" kimi gözdən salmağa çalışan zadəganlara qarşı yönəldilmiş "Əsl ingilis" (1701) adlı satirik şeirini yazıb özünə müsbət siyasi imic və karyera qazanmağa çalışmışdır. Əsilzadələrə qarşı olan kin və ironiya Defonun satirasını tez bir zamanda xalq arasında məşhurlaşdırmışdır. Defo anonim şəkildə "Dissenterlərə divan tutmağın kəsə yolu"(1702) pamfletini yazmışdır. Pamfletdə etiqad azadlığını müdafiə etdiyi üçün Defo böyük məbləğdə cərimələnməyə, yüksək rüsvayçılıq sütununa bağlanmağa və həbsə məhkum olunmuşdur. Hökümətin gizli xəfiyyəsi olmağa razılıq verən Defo bunun müqabilində həbsdən azad edilmişdir. Bu hadisələrdən sonra Daniel Defo siyasətdən həmişəlik getməyə qərar vermişdir. O, həbsxana həyatı ilə vidalaşandan sonra, yaradıcılıq həyatına qədəm qoymuşdur. Onun qələmə aldığı bədii əsərlərdə cəmiyyətin daxili mexanizmində hökm sürən ədalətsizliyə, amansızlığa, antihumanist cəhətlərə açıq və ya dolayı şəkildə münasibət bidirilirdi. Yazıçı bədii sözün gücü ilə həyata müdaxilənin bütün mümkün variantlarını gercəkləşdirməyə cəhd edirdi. Defonun siyasi və ədəbi – estetik baxışlarını ifadə edən maarifçilik ruhlu əsərləri həmin meylin təzahürü idi. Bu sıradan, şübhəsiz, onun ən monumental və uğurlu işi dünya ədəbiyyatı tarixində özünəməxsus iz qoyan "Robinzon Kruzo" romanıdır . Bu əsər yazşçının dünyanı fəth edən ən məhşur əsəridir. Əsər işıq üzü

görəndən ta indiyədək dünyanın elə bir nöqtəsi yoxdur ki, orada çap olunmasın. Məhz yüksək bədii keyfiyyətlərinə, hadisələrin ustalıqla, şirin dillə təsvir edilməsinə, sujet xəttinin çox maraqlı qurulmasına, ümumiyyətlə gözəl qələmə alınmasına görədir ki, “Robinzon Kruzo” ən çox tirajla çap olunan, əsərlərin ön cərgəsində idi. Daniel Defo bu əsəri ilə Avropada həm də roman janrına yeni keyfiyyətlər gətirdi, köhnə steriotipləri dağıtdı. Nahaq yerə onu Avropanın yeni romançılığın banilərindən biri hesab etmirlər. Ustalıqla yazılmış bu əsərlə bağlı ən maraqlı cəhətlərdən biri də budur ki, roman dəniz səyahətindən bəhs etsə də, Daniel Defo yalnız bircə dəfə - gənclik illərində gəmiylə Portuqaliyaya səfər edib, yerdə qalan bütün ömrünü yalnız öz vətənində keçirib. Maarifçilərin içtimai-iqtisadi və əxlaqi ideyalarını əks etdirən “Robinzon Kruzo“ əsərinin birinci hissəsi 1719-cu ildə nəşr olunan zaman yazıçı əlli doqquz yaşında idi. Məhz bu əsərlə D. Defo özünə ölməzlik qazanmışdır. Əsərin ikinci hissəsi 1720-ci, üçüncü hissəsi isə 1721-ci ildə işıq üzü görmüşdür. Daniel Defo romanını Robinzonun həqiqi memuarı kimi təqdim etmiş və əsər yazıçının müasirləri tərəfindən də məhz bu şəkildə qəbul edilmişdir. Romanın yaranmasına təkan verən və əsasını təşkil edən isə Riçard Stilin 1713- cü ildə nəşr olunmuş “Aleksandr Selkirkin tarixçəsi” oçerki olmuşdur. “Robinzon Kruzo” XVIII əsr ədəbiyyatı, fəlsəfəsi və siyasi iqtisadına da təsir göstərmişdir. Əyləncə və təhkiyə sadəliyi, bədii gözəllik-bütün bunlar Daniel Defo romanını uzun illərdən bəri oxuculara sevdirən keyfiyyətlərdəndir. Qəhrəmanın tənha həyatının təsvir olunduğu birinci hissə daha çox ideya-bədii dəyərə malikdir. D. Defo ilk dəfə ekzotik planda olsa da, ədəbiyyatda yaradıcı

əmək və fədakarlıq mövsümünü işləmişdir. Məhz əmək Robinzona tənha adada insanlıq sifətini itirməməyə yardım etmişdir. Təbiətlə üz-üzə yalqız qalan Daniel Defonun qəhrəmanı yorulmadan çalışır, ona lazım olan məişət əşyaları hazırlayır, qayıq düzəldir, əkin əkir və ilk məhsulunu yığır. Bir sıra çətinliklərə sinə gərən Robinzon müxtəlif sənətlərə yiyələnir. Onun düzəltdiyi hər şey ən xırda detallaradək təsvir olunur. Daniel Defo öz oxucusunu Robinzonun gərgin zəhmət və düşüncələrini bütün xırdalıqlarına, incəliklərinə qədər incələməyə vadar edir. Yazıçı bu bədii manera ilə oxucunu psixoloji cəhətdən həmin mühitin ovqatına uyğunlaşdırmaq məqsədi güdürdü. Daniel Defo özü romanını alleqorik səpkidə yazdığını qeyd edir. Həqiqətən də, Robinzonun macəralarının təsviri böyük ümumiləşdirici məna kəsb edir, burada simvollarla çatdırılan sətiraltı mənalar kifayət qədər çoxdur. Romanda Defonun insan həyatını və bəşəriyyətin tarixini əks etdirən görüşləri yer almışdır.

## I bölmə

Daniel Defonun şəxsiyyətini və qələmini oxuculara çatdırmaq məqsədi ilə kitabxanada müxtəlif tədbirlər keçirilir. Təbdirlər yazıçının əsərlərini oxuculara mənimsətmək və sevdirmək üçün nəzərdə tutulur. Bu tədbirlərdən biri də, məhz kitab sərgisidir. Sərgidə sözü gedən yazıçının müxtəlif adda kitabları və seçilmiş əsərləri geniş yer alır. Daniel Defonun öz əsərləri ilə yanaşı, onun özü və əsərlərindən bəhs edən müxtəlif ədib və tanınmış şəxslərin kitabları və sitatları da sərgidə yer tutur. Sərgi müxtəlif başlıqlarla “Realist romanlar banisi Daniel Defo”,

“Romançılığın banisi Daniel Defo”, “Dünya ədəbiyyatı tarixində özünə məxsusluğu ilə seçilən Daniel Defo”, “Yazıçını ölməzliyə aparan roman”RobinKruzo””,”Həmişə yaşar yazıçı Daniel Defo” və digərləri ilıə bəzədilir. Sitatlardan bir necəsini sizin nəz\ərinizə çatdırırıq.

## Sitatlar

İnsanı ölümdən ağlı, zəhməti və mənəvi aləmi xilas edir.

İngilis yazıçısı Daniel Defo

Əgər, işdi-şayəd, birdən bir insan ayağı dəyməmiş adaya getməli olsam özümlə “Bibliya” və “Robinzon Kruzo” kitabını götürərdim. Doğrudan da, “Bibliya” kimi “Robinzon Kruzo” kitabı da əxlaqi cəhətdən saf, mənəvi baxımdan şəffafdır və hər bir insanın həyatda qarşılaşdığı müxtəlif səpkili suallara bu əsərdə cavab tapmaq mümkündür.

Rus şairi A. Blok

J.J.Russo ”Emil və onun tərbiyəsi” əsərində deyir: Yeniyetmələrin və gənclərin əxlaqının pozulmaması üçün onlara D. Defonun əsərlərini oxumağı tövsiyə edirəm.

Daniel Defonun Robinzon Kruzo əsərində hekayətin sadəliyi və təbiiliyi onun inandırıcılığını artırır.

Professor Cəlil Nağıyev


ROBİNZON KRUZO
Daniel Defo
ALTUN KITAB


Daniel Defo
ROBİNZON KRUZO
DÜNYA ƏDƏBİYYATI KLASSİKLƏRİ


DÜNYA ƏDƏBİYYATI
DANİEL DEFO
ROBİNZON KRUZO

Kitabxanada oxucular tərəfindən sevilən tədbirlərdən biri də müsabiqələrdir. Bildiyimiz kimi Daniel Defo bir-birindən gözəl romanların müəllifidir. Müsabiqə zamanı xeyli sayda məktəblilər müsabiqəyə cəlb olunur və bu haqda məlumatlandırılırlar. Oxucular əsərləri oxuyaraq tanış olur və həmin hekayələrə uyğun rəsmlər çəkirlər. Şəkillərin hazırlanması üçün uşaqlara iki həftə vaxt verilir. Bu vaxt ərzində oxucular həm Daniel Defonun əsərlərini oxuyur, həm də oxuduqları və çox bəyəndikləri əsərlərə uyğun şəkillər çəkirlər. Ən gözəl məna kəsb edən rəsm işləri mükafatlandırılır. Uşaqlar dahi yazıçı Daniel Defonon əsərlərinə, xüsusi ilə də "Robinzon Kruzo" romanına üz tuturlar. Ən çox diqqəti çəkən motivlər, Robinzon Kruzonun özü, onun şücaətini göstərən bir neçə xüsusiyyət ağ vərəqlərə həkk olunur. Həmçinin Cümə, gəmi, dəniz, sahil, habelə adadakı heyvanlar, hətta Robinzonun sahildə nəhəng ayaq izi ilə ilk tanışlıq anı tez- tez müraciət olunan rəsmlərdəndir. Müsabiqənin qaliblərini müəyyən etmək üçün münsiflər heyəti təyin olunur. Sözü gedən heyət fərqlənən rəsmləri diqqətli bir şəkildə nəzərdən keçirərək, qalibləri müəyyən edirlər. Qaliblər təyin edildikdən sonra, xüsusi diplom və fəxri fərmanlarla mükafatlandırılır, müxtəlif yazıçı və şairləin kitabları ilə təltif olunurlar.

**Məqsədyönlü tədbirlərdən biri də sual-cavab gecəsidir.**

**Kitabxanaçı:** Deyə bilərsinizmi, Daniel Defo neçənci ildə anadan olmuşdur və kim idi?

**Oxucu:** Daniel Defo Dünya şöhrətli yazıçı idi. O, 1660-cı ildə (bəzi mənbələrdə bu rəqəm 1661-ci il göstərilir) İngiltərədə-Kripleytdə bir tacir ailəsində anadan olmuşdur. ...

**Kitabxanaçı:** Yazıçının hansı əsərlərini sadalaya bilərsiniz?
**I Oxucu:** "Britaniya kommersiyasının xüsusiyyıətləri içərisində ümumi ticarət tarixi" (1713), "Dünyanın hər yerində kommersiyanın böyük sahələrinin, gəmiçilik elminin və əkinçiliyin kəşfi və təkmilləşdirilməsinin ümumi tarixi" (1725), "Nümunəvi ingilis taciri" (1727), "Mətbuatın müdafiəsi, yaxud "Ədəbiyyatın xeyirliliyi haqqında təcrübə" (1718) əsərini qeyd etmək olar.

**II Oxucu** D. Defonu məşhurlaşdıran isə daha çox bədii əsərləri, romanları olmuşdur. Bundan sonra o, bir-birinin ardınca "Məşhur kapitan Sinqltonun həyatı, macəraları və pirat yürüşləri" (1720), "Kavalerin xatirələri" (1720), "Məşhur Mol Flendersin sevincləri və kədərləri" (1722), "Polkovnik Cekin tat rixi" (1722) və "Uğurlu məhəbbət və yaxud, Ledi Roksana adı ilə tanınan madmazel de Belonun həyatının və başına gələnlərin tarixi" (1724), "Roksana" romanlarını yazmışdır.

**Kitabxanaçı:** Daniel Defonun ən məhşur əsəri hansıdı?
Oxucu: Daniel Defo bədii yaradıcılığa çox geç başlamışdır. Buna baxmayaraq, o, "Robinzon Kruzo" əsəri ilə dünya

ədəbiyyatına öz adını qızıl hərflərlə yazdırmağa nail olmuşdur. Xüsusilə də, o, 58 yaşında yazdığı özünün ilk və ən yaxşı romanı olan "Robinzon Kruzo"nun həyatı və qəribə macəraları (1719) əsəri ilə dünyanın hər yerində tanınmış və çox böyük şöhrət qazanmışdır. Ustalıqla yazılmış bu əsərlə bağlı ən maraqlı cəhətlərdən biri də budur ki, roman dəniz səyahətindən bəhs etsə də, Daniel Defo Yalnız bircə dəfə - gənclik illərində gəmiylə Portuqaliyaya səfər edib, yerdə qalan bütün ömrünü yalnız öz vətənində keçirib.

**Kitab müzakirəsi**: Daniel Defo yaradıcılığı yetərincə imkan verir ki, ondan dönə-dönə söhbət açılsın. Kitabxanalarda keçirilən maraqlı tədbirlərdən biri kitab müzakirəsidir. Daniel Defonun 355 illik yubileyi münasibəti ilə yazıçının kitablarının müzakirəsi keçirilməsi oxucular olduqca maraqlıdır. Daniel Defo bir neçə əsərin müəllifi olsa da, onu bütün dünyaya sevdirən, ona ölməzlik bəxş edən əsəri məhz "Robinzon Kruzo"dur. Kitab müzakirəsində kitabxanaçı oxuculara bu əsər haqqında geniş məlumat verir. Hörmətli oxucular! Dünya şöhrətli yazıçının bu əsərini böyükdən –kiçiyə, hamı sevərək oxuyur. Bu əsəri həyəcansız oxumaq mümkün deyil. Əsərdə qəhrəmanın başına gələn macəralar olduqca maraqlı qələmə alınmışdır. Məlum olduğu kimi, bu roman anonim formada əsərin baş qəhrəmanı Robinzon Kruzonun adından qələmə alınmışdır. İlk dövrdə müəllif bu romanın böyük uğur qazanacağına ümid etmirdi. Hətta dostları və tanışları, ədəbi içtimaiyyət tərəfindən qınağa məruz qalacağından ehtiyat edirdi. Ancaq bu belə olmadı. Əsər çap olunan kimi, sürətlə yayıldı, böyük şöhrət qazandı və hətta müəllif sonralar özünün yeni əsərini "Robinzon

Kruzo" nu yazan adam tərəfindən qələmə alındığını yazmışdır. "Robinzon Kruzo romanının bədii xüsusiyyətləri, ilk növbədə, əsərdə təsvir olunan hadisələrin, qəhrəmanın başına gələn macəraların inandırıcı verilməsində və təbiiliyindədir. Əyləncə və təhkiyə sadəliyi, bədii gözəllik-bütün bunlar Daniel Defo romanını uzun illərdən bəri oxuculara sevdirən keyfiyyətlərdir. Əsər fəlakət zamanı gəminin bütün heyəti məhv olandan sonra kənara atılıb Böyük Orinoko çayının mənsəbinə yaxın bir yerdə Amerika sahilləri yanında kimsəsiz bir adada iyirmi səkkiz il tək-tənha yaşamış dənizçi Robinzon Kruzonun həyatı, qeyri-adi və qəribə macəraları və gözlənilmədiyi halda quldurlar tərəfindən xilas edilməsi haqqında özünün yazdığı şəhrdir.

**Kitabxanaçı:** Əziz oxucular, deyə bilərsinizmi, Daniel Defonu sizə tanıdan hansı əsəri oldu?

**Oxucu:** Daniel Defo bir sıra roman müəllifi olsa da, biz şagirdlərin beyninə həkk olan onun məhz "Robinzon Kruzo"əsəri idi. Ustalıqla yazılmış bu əsərdə istedadlı yazıçı məharətlə bu hadisələri bədiiləşdirərək oxucunu Robinzon Kruzo ilə adada günbəgün, saatbasaat yaşamağa, onunla birgə çətinlikləri aşmağa məcbur edib. Romanı oxuyan hər kəs sanki Robinzonla birgə həmin həyatı yaşamış olur ki, bu da müəllifin inkar edilməz istedadı sayəsində idi.

**Kitabxanaçı:** Bu əsərin uğuru , işığı özündən sonra bir neçə əsərin doğulmasına təkan verdi. Deyə bilərsinizmi o əsərlər hansılar idi?

**Oxucu:** Daniel Defo qazandığı böyük uğurdan sonra yazıçı həvəslənir və səyahətdən bəhs edən bir neçə əsər yazır.”Polkovnik Cek”, “Dünya ətrafında səyahət”, “Dəniz qulduru”,”Şeytanın siyasi tarixi” əsərləri çap olunsa da, ”Robinzon Kruzo”nun kölgəsindən çıxa bilmədilər.
**Kitabxanaçı:** Yazıçı Robinzonu hansı xarakterdə yaratmışdı? Yəni əsərin qəhrəmanının hansı xüsusiyyəti diqqətinizi cəlb etdi?
**I Oxucu:** “Atam hüquqşunas olmağımı istəyirdi. Mən isə ancaq dəniz səyahəti xəyalı ilə yaşayırdım. Atam və anam fikrimdən keçənlərdən xəbərdar idi. Məni bu xəyallarımdan çəkindirməyə çalışırdılar. Atam deyirdi ki, mənim seçdiyim yolu ancaq işsiz-gücsüz adamlar, bir də idealistlər seçər, odur ki, əgər öz ağılsız niyyətimdən əl çəkməsəm, Allah mənim cəzamı verəcək. Mən isə qərarlı idim, atamla üz-üzə gəlməmək üçün evdən gizlicə qaçmaq qərarına gəldim”. Məncə, bu sözlər onun nə qədər əzmli, iradəli və qətiyyətli insan olduğunun bariz göstəricisidi.
**II Oxucu:** Mənim diqqətimi cəlb edən xüsusiyyət isə, adada tək qalmasına baxmayaraq, Robinzon kədərlənmir, düşdüyü vəziyyətlə barışır və meşədə mümkün qədər özünə şərait yaradır. Belə ki, o, məişət əşyaları düzəldir, ev heyvanları, keçi saxlayaraq onun südündən və ətindən qidalanır. Onun ən böyük kəşflərindən biri də buğda cücərdib, taxıl əldə etməsidir. . Siçanlar yeməsin deyə o, buğdanı rütubətli bir yerdə saxlamaq məcburiyyətində qalır və müəyyən müddətdən sonra görür ki, buğdalar cücərmiş vəziyyətdədir. Beləliklə Robinzon çörək bişirmək fürsəti əldə edir.

**III Oxucu:** Məni isə, təəccübləndirən qəhrəmanın Cüməyə ingilis dili öyrətmək qərarına gəlməsidir. Müəyyən vaxtdan sonra Robinzon Cümə ilə ingilis dilində danışmağa başlayır.
**IV Oxucu:** Mənim fikrimcə isə, Robinzon Kruzonun ən səciyyəvi xüsusiyyətlərindən biri, ondakı azadlıq əzmi idi. Yəni o bu halla, qula çevrilmək halı ilə heç cür barışa bilmir. Çətinliklə də olsa, gəmidən qaçır. Özünə qul kimi yaşamağı rəva bilməyən, azad yaşamaga can atan Robinzon adada Cümə, Cümənin atası və digərlərinə da tam şəkildə azadlıq vermişdi. O nəinki, adadakılara vicdan azadlığı, hətta din azadlığı da vermişdi. Cümə-protestant, atası-bütpərəst, ispan isə-katolik idi.
**Kitabxanaçı:** Qəhrəmanımız adada olarkən hansı təbii fəlakətlə üzləşir və o bunu necə təsvir edir?
**Oxucu**: “Mağaranın girəcəyində işlədiyim yerdə bir gurultu eşitdim. Başıma Torpaq töküldü. Mağaranın tavanındaki dirəklər dəhşətli bir cırıltı ilə yerə tökülüb sındı. Ayağımı yerə basan kimi hər şey mənə aydın oldu. Zəlzələ baş vermişdi. Səkkiz dəqiqənin ərzində yer üç dəfə elə bərk silkələndi ki, dənizdəki qayanın baş hissəsi gurultu ilə uçub suya düşdü. Mən belə bir şeyi əvvəllər görməmişdim, odur ki, qorxdum. Üçüncü təkandan sonra hər şey sakitləşdi.Yarım saat sonra dəhşətli bir qasırğa qopdu.
**Kitabxanaçı**: Robinzonun adada tez- tez oxuduğu kitab hansı idi? Ümumiyyətlə onun dinə münasibəti necə idi?
**Oxucu:** O, hər gün Incil oxuyardı və gəmidə baş vermiş qəzada yeganə tək sağ qaldığı üçün tanrıya hər an dualar edərdi. Sonralar Cümə də bu adanın sakininə çevrilir və o da, Robinzondan təəsirlənərək allahın müqəddəs kitabını oxumağa başlayır. Qeyd etməliyəm ki, Robinzon Kruzonun

Dinə inamı da özünəməxsus səciyyə daşıyır. Düşdüyü adada təsadüfən buğda və düyü sünbüllərinə rast gəldiyi zaman, əvvəlcə elə bilir ki, bu, Allahın işidir. Sonra isə yadına düşür ki, axı həmin bu yerdə o, bir vaxt quş yemi üçün nəzərdə tutulmuş torbanı silkələmişdir. Və yaxud da, adada yaşamasının on səkkizinci ilində Robinzon qum üzərində insan ayaqlarının izlərinə rast gəlir. İlkin olaraq bir puritan kimi onun ağlına gəlir ki, bu yəqin şeytan ayağının izidir, həmin şeytan, çox güman ki, onu yoldan çıxarmağa gəlib.

**Kitabxanaçı**: Əsərdən də göründüyü kimi Robinzon Kruzo olduqca cəsarətli insan idi və heç nə onu qorxutmurdu. O, sanki qorxunun üzərinə atılırdı. Buna baxmayaraq, gördüyü ayaq izləri ona necə təsir bağışlayır?

**Oxucu:** Bu hadisə Robinzon Kruzonu çox qorxutdu**.** Əsərin bu parçasına diqqət edək: "Bir dəfə günortaya yaxın dənizin kənarı ilə qayığı saxladığım sahilə tərəf gedirdim. Birdən qumun üzərində yalın insan ayağının aydın izlərini gördüm. Mən yerimdə donub qaldım, elə bil, məni qara basmışdı. Bu insan ləpiri idi. Buraya insan necə gəlib çıxa bilərdi? Təşviş içində öz qalaqma tərəf götürüldüm. Hər iki- üç addımdan bir dönüb dala tərəf baxırdım. Hər bir kötük mənə adam kimi görünürdü. Ətrafımdakı hər şeyin necə qorxunc şəkillərə düşdüyünü, ağlıma necə dəhşətli fikirlərin gəldiyini təsəvvür edə bilməzsiniz. Özümü evimin həyatinə necə saldığımı bilməzsiniz. Dəhşət içində düşunürdüm ki, indiyə qədər məni bu boş və kimsəsiz adada himayə edən boyük Yaradan da mənə kömək ola bilməz. Bu vəhşilərin ayaq izi idi. Mən o gündən vəhşiləri güdməyə başladım".

**Kitabxanaçı: Cümə Robinzon Kruzo üçün kim idi?**
**I Oxucu**: Cümə qəhrəmanımz üçün səmimi dost, bacarıqlı tələbə, sadiq qul, (baxmayaraq ki, Robinzon nə Cüməyə, nə də digərlərinə qul kimi baxmır və onları o gözlə görmürdü) və çevik döyüşçü idi. Onlar saatlarla söhbət edər, birgə əkin əkər, ov edər, yemək və məişət əşyaları hazırlayar, birgə kitab oxuyardılar.
**II Oxucu:** Robinzona sözəbaxan köməkçi lazımdır, o, Cümənin "sadiqliyindən və itaətkarlığından" sevinir. Cümə isə nəinki sadiq xidmətçi, həm də ağıllı və zəkalıdır. Cüməni yaxından tanıyan Robinzon anlayır ki, dərin zəkası və "mənəvi qabiliyyətinə" görə bu gənc heç də onun özündən geri qalmır. Cümə ona öyrədilən hər şeyi qavrayır. Məhz Cümənin sayəsində tənha adadakı məşəqqətli həyat Robinzona "xoş və asan" görünür.
**Kitabxanaçı:** Robinzon Kruzo neçə ildən sonra vətəninə, İngiltərəyə gəlir və o, nələrlə qarşılaşır?
**I Oxucu:** Robinzon Kruzo otuz beş ildən sonra vətəninə qayıdır və qarşılaşdığı mənzərə heç də onun ürəyincə olmur. Əsərin bu hissəsinə diqqət yetirək: **"**Uzun sürən dəniz səyahətindən sonra mən 1687-ci il iyulun 11-də İngiltərəyə gəlib çıxdım. Mənhim buradan çıxdığım düz otuzbeş il idi. Burada hər şey mənə yad idi. Sanki mən heç buralarda olmamışam. Sonra mən Yorkşirə getdim. Atam və anam çoxdan vəfat etmişdi. Qohum -əqrabalarımdan yalnız iki bacım və qardaşlarımdan birinin iki uşağı qalmışdı. Hamı məni ölmüş hesab edirdi, ona görə də ata malından mənə heç bir irs ayırmamışdılar. Bir müddət ərzində İngiltərədə yaşayıb mənim üçün təzə olan bu mühitə alışdım və evləndim. Üç uşağım- iki oğlum, bir qızım oldu. Artıq

həyatımın sakit və şad mərhələsini yaşayırdım. Amma mənə çox böyük fəlakət üz verdi. Arvadım öldü. Özümü yenə də yalqız hiss edirdim. Sonralar məndə dəniz səyahətinə qızğın meyl oyanmışdı. Artıq on beş ildən çox idi ki, mən həyatımı səyahətlərdə keçirirdim. İndi artıq mənim 72 yaşım var. Həyatın keşməkeşlərini görmüşəm, bir yerdə məskən salıb ömrünün son günlərini sakitlik içində keçirməyin nə qədər böyük səadət olduğunu yaxşıca anlamışam.”

Kitabxanada oxucular tərəfindən sevilən tədbirlərdən biri də ədəbi bədii gecədir. Çünki ədəbi - bədii gecə yazıçını oxuculara daha da sevdirmək məqsədi daşıyır. Bunun üçün səhnə yazıçının şəkilləri ilə bəzədilir. Onun əsərlərindən müxtəlif obrazların şəkilləri zalın divarından asılır. Çoxlu qonaqlar, uşaq şairi və yazıçıları, müəllim və şagird heyəti dəvət olunur. Daniel Defonun kitablarından ibarət kitab sərgisi səhnəyə rəngarənglik verir.

*İlk öncə aparıcı qismində iki şagird səhnəyə daxil olur. Ədəbi- bədii gecəni açıq elan edərək, qonaqları salamlayırlar.*

**I Aparıcı:** Salam, əziz qonaqlar, dəyərli tədbir iştirakçıları, hamınızı 355 yaşlı həmişə yaşar, dünya ədəbiyyatımızın sönməz ulduzu sayılan dahi yazıçı Daniel Defonun ədəbi-bədii yaradıcılıq gecəsində xoş gördük.

**II Aparıcı**: Bu soyuq qış günündə bizləri buraya toplayan məhz Daniel Defo yaradıcılığının hərarətidir. Onun kövrək qəlbindən qopub gələn o nəhəng əsərlər yazıçının qeyri-adi istedadından xəbər verməkdədir. Onun əsərlərinə nəzər saldıqda, cansız bir qələmin lal vərəqlərə nə qədər can verdiyini, həyat verdiyini və necə böyük gözəlliklər yaratdığının şahidi oluruq. Bir qələm həyatı, yaşamı bu

qədər gözəl, incə əks etdiə bilərmi?.. Belə bir dahi haqqında söz açmaq üçün sözü qonaqlarımıza verək. Onların yazıçı haqqında dəyərli məlumatlarını dinləmək əminəm ki, hamımızın qəlbincədı. Dəyərli qonaqlarımız bir-bir səhnəyə yaxınlaşır.

**I Aparıcı:**"Böyük ingilis maarifçisi, görkəmli roman ustası, mütəfəkkir yazıçı Daniel Defonun "Robinzon Kruzo" əsəri dünya ədəbiyyatının nadir incilərindən biridir. Daniel Defonun bu romanı qeyri- adi bir əsərdir. Üç yüz il bundan əvvəl yazılmasına baxmayararaq, bu roman da dünya ədəbiyyatının çox saylı nadir nümunələri kimi hələ bu gün də öz ilkin təravətini, bədii dəyərini itirməyib və dünyanın bütün guşələrində müxtəlif yaşlı oxucular tərəfindən sevilə-sevilə oxunur.

**II Aparıcı:** Məlum olduğu kimi, bu əsərin yazılmasına həmin dövrlərdə İngiltərədə baş vermiş bir hadisə səbəb olmuşdur. Robinzon Kruzonun, həqiqətən də, proto tipi olmuşdur və bu dörd il bir adada yalqız yaşamağa məhkum edilmiş Aleksandr Selkirk idi. 1709-cu ilin yanvar ayının 31-də İngiltərə mətbuatında Vuds Rocers adlı bir kapitanın maraqlı qeydləri çap olunur. Bu qeydlərdə deyilirdi ki, onun idarə etdiyi gəmi su götürmək üçün Xuan Fernandes adalarından birinə-Mass-a Tyerra adasına yan alır. Komanda üzvləri gəmiyə qayıdarkən qəribə bir insanla rastlaşırlar. Həmin insan əyninə keçi dərisindən paltar geyinmiş, vəhşi heyvan kimi bir varlıq idi. Bu adam həmin adada dörd il altı ay yalqız yaşamışdır.

**I Aparıcı**: Onunn bu adaya düşməsinin tarixçəsi isə belə olmuşdur: O,"Beş liman" adlı gəminin kapitanı məşhur admiral Dampyerin köməkçisi imiş. Günlərin bir günü

onların üzdüyü gəmi deşilir və su buraxmağa başlayır. Bu səbəbdən kapitanla köməkçininn sözü çəp gəlir. Buna görə də bu cəncəl kapitan köməkçisini tək-tənha bu adada qoymaq qərarına gəlir. Bu məlumatı mətbuatda oxuduqdan sonra Daniel Defo özünün məşhur "Robinzon Kruzo" romanını yazmaq fikrinə düşür və əsl adı Aleksandr Selkirk olan bu adamın prototipi olaraq bu məhşur qəhrəmanın obrazını yaradır.

**II Aparıcı**: Robinzon Kruzo ziddiyyətli mənəviyyata malikdir. O, həm cəsurdur, həm də xeyirxahdır. Bu qəhrəman həyatını təhlükə qarşısında qoyaraq , əvvəlcə Cüməni, sonra isə onun atasını və gəmi kapitanını xilas edir. Uzun müddət keçirdiyi tənha həyat onu nəinki vəhşiləşdirməmiş, hətta insani hisslərini belə itirməmişdir. R. Kruzo elə ilk andaca düşünüb- daşınmadan dara düşmüş vəhşi uşağa yardım əlini uzadır. O, Cüməyə nökəri, qulu kimi baxmır, onunla əsl dost olur. Robinzon Kruzo şüurlu insan (homo sapiens) olduğu üçün ilk növbədə, yaşadığı aləmi öyrənməyə çalışır. O, düşdüyü, ona məlum olmayan bu ada ilə tanış olur. Sonra yemək, sığınacaq, geyim haqqında düşünür. Nəhayət, ilk insanlar kimi, yaşamaq üçün o, əvvəlcə ovçuluq edir, vəhşi keçini əhilləşdirir-maldarlıqla məşğul olur, təsadüfən tapdığı buğdanı əkərək taxıl əldə edir, yəni əkinçilik edir, get-gedə öz təsərrüfatını genişləndirir. Ölümdən xilas etdiyi Cüməyə öz dilini (ingilis dilini) öyrədir, yazı yazdırır.

**I Aparıcı:** Əlbəttə, Robinzonun həyatını istehsalın ilkin inkişaf mərhələsi kimi təsdiqləmək yanlıış olardı. Təbiətlə mübarizədə Robinzon heç də göründüyü kimi tək deyil. O, dağılmış gəmidən alətlər, silah, barıt, kağız və mürəkkəb götürmək imkanı əldə edir. Adıçəkilən bütün bu əşyalarda isə

minlərlə insan əməyi vardır. Beləliklə, insan cəmiyyətinin məhsulu Robinzonun daxmasında gözəgörünməz şəkildə mövcuddur və onun həyatının nizama düşməsində əhəmiyyətli təsirə malikdir. Robinzon məhz bu vasitələrin köməyi ilə çevrəsindəki təbiəti ram etməyə, ondan faydalanmağa müvəffəq olur. Onların köməyi olmadan bütün enerjisini sərf etsə belə, həyat üçün mühüm olan nisbi "sivil" şəraiti o özü üçün yarada bilməzdi.

**II Aparıcı :** Robinzon Kruzonun qeyri-adi hekayətini bədii boyalar, üslubu səlisliklə nəql edən Daniel Defo yazıçı təhkiyəsini, əsasən, canlı və vasitəsiz formada aparır. Bu isə gerçəkliklə bağlı informasiyaların obrazlaşdırılıb realistcəsinə verilməsi sayəsində əldə olunmuşdur. D.Defo qəhrəmanının həyatını xırdalıqlarınadək qeyri-adi incəliklə təsvir edir ki, onların da hər biri ayrıldıqda dərin məna və işarəvi məzmun kəsb edir. D.Defo istər hadisələrin epik plandakı təqvimində, istərsə də peyzajlar, təbiət lövhələri yaratmaq baxımından mahir təsvirlər ustasıdır. O, cənub təbiətinin parlaq mənzərəsini rəssam tablosu kimi yaradır, ilin hər bir fəslinin rəngarəngliyini özünəməxsus peyzajlarla, təbiət lövhələri ilə verə bilir. Bu sıradan dəniz təsvirləri daha diqqətçəkicidir. Hiss ovqatını təlqin etmək üçün yazıçı çox zaman məqsədli şəkildə epik təsvirin təmkinli təqdimatına üstünlük verir. Bu bir qədər quru, yorucu görünsə də, adadakı tənha insanın müşahidələrini və daxili psixoloji durumunu çatdırmaq üçün ən uyğun bədii maneradır.

**II.Aparıcı**: 1719-cu ildə bu romanın ikinci hissəsi çap olunmuşdur. Öz vətəni İngiltərədə məskunlaşdıqdan sonra o, rahat həyat tərzi keçirməyə başlayır, ailə qurur, uşaqları olur. Buna baxmayaraq o, yenə də səyahət etmək qərarına

gəlir. Artıq ahıl yaşlarında olmasına baxmayaq, Robinzon Kruzo Sibirdən keçərək Çinə gedir. O, hətta ilk səyahəti zamanı düşdüyü adaya da baş çəkir, oradakı vəziyyətlə tanış olur, orada qanun-qayda yaradır.

**II. Aparıcı**: 1720 - ci ildə isə Daniel Defo bu romanın üçüncü hissəsini çap etdirmişdir. Bu roman "Robinzon Krunzonun bütün ömrü boyu keçirdiyi ciddi düşüncələr" adlanır. Bu roman əvvəlki əsərdən zəifdir. Təsadi deyil ki, Defonun rəqiblərindən biri bu romana pamflet də həsr etmişdir. "Robinzon Krunzo"nun ikinci və üçüncü hissəsi həm məzmun dərinliyinə, həm də bədii səviyyəsinə görə birinci hissədən əsaslı şəkildə fərqlənir. Bu hissələrdə Robinzonun adanı tərk edəndən sonrakı həyat və fəaliyyətindən, Hindistan, Çin və Sibirə ticarət məqsədi daşıyan səyahətlərindən, yaşadığı adanın müstəmləkəyə çevrilməsindən danışılır. Robinzon Krunzo bir çox maneələri dəf edir, lakin bu dəfə artıq söhbət macəradan deyil, işgüzar avantüra və alverdən gedir. Belə ki, qəhrəman özü burada burjua işbazı kimi təsvir olunmuşdur. Romanın üçüncü hissəsi Robinzonun həyat haqqındakı didaktik mühakimələrindən ibarətdir. Görünür, yazıçı ekzotik yaradıcılıq məharətini o qədər də ifadə edə bilməmişdir.

**I Aparıcı:** Daniel Defonun "Robinzon Kruzo"dan sonra yazdığı əsərləri bir neçə qrupa ayırmaq olar. Avropa kələkbazlıq romanlarından götürülən macəra romanları – "Moll Flandes" (1722); "Polkovnik Cek" (1722); "Roksana" (1724); dəniz macəraları romanı-"Kapitan Sinqlton" (1720); tarixi romanlar – "Taun ilinin gündəliyi" (1722), "Kavalerlərin memuarları" (1720) kimi əsərlərdir. Klassik romanlar müəllifinin əksər əsərləri memuar və ya

avtobioqrafik səpkidə yazılmışdır. Bu əsərlərdə qəhrəmanın həyatından və şəxsiyyət kimi formalaşmasından bəhs olunur.

**II Aparıcı:** Daniel Defo sərgüzəşt və macəra səhnələrinin təsviri və təqdiminə xüsusi maraq göstərdiyindən sözügedən əsərlərdə bu cəhət tez-tez qabarıq görüntülərlə nəzərə çarpmaqdadır. Daniel Defo həyat şərtlərinin və şəraitin insan şəxsiyyətinin formalaşmasındakı əhəmiyyətini öz əsərlərində inandırıcı təsvir və qənaətlərlə açıqlayır. O, qəhrəmanlarının qəddar və amansız dünya ilə toqquşmasını sərt həyat səhnələri ilə göstərir. Bir qayda olaraq, bu insanlar yaşamaq haqqından məhrum olan yetimlər, atılmışlar, quldurlardır. Ya burjua dünyasının qeyri –insani qanunları çərçivəsində hərəkət etməli, ya da onun qurbanına çevrilməlidir. Onların hər biri mübarizədə təkdir və yalnız öz güclərinə arxalanır. D.Defo bununla özünün fəlsəfi baxışlarını obrazlaşdırmışdır; onun qənaitinə görə, cəmiyyət öz amansız qanunları ilə daim insanı əzir, tənhalaşdırır. Bundan qurtulmağın yolu isə sərt xarakterə malik olmaq və özünə inamdır. İnsanı qoruyan, onun mənəvi dünyasını xilas edən həmin keyfiyyətləri yaratdığı obrazlarda təcəssüm etdirən görkəmli yazıçı məhz bu seçimi ilə əbədi ölməzlik qazanmışdır.

**I Aparıcı:** Bu istedadlı, məhşur yazıçı həm də İngiltərə siyasətində qısa da olsa, öz sözünü deyən adam böyük maddi sıxıntılar içərisində yaşadı, pulsuzluqlar içərisində də 70 yaşında bu dünyayla vidalaşdı. Ən acınacaqlı fakt isə budur ki, əsərləri ilə dünyanı fəth edən yazıçının qəbrində üç-dörd kəlmə yazısı olan başdaşı yalnız 18-ci əsrlərin axırlarında qoyulub. Çox sadə qəbir lövhəsində isə bunlar yazılıb: Daniel

Defo, “Robinzon Kruzo”nun müəllifi. Doğumundan 70 il sonra 1731-ci il 24 apreldə vəfat etmişdir.”

**II Aparıcı:** Göründüyü kimi, onun özündən də məşhur olan qəhrəmanın adı Daniel Defonun qəbir daşında da özünə yer tapıb. Amma tanıyanlar tanıyır, bilir ki, Daniel Defo nəhəng yazıçıdır və qəhrəman Robinzon Kruzo da o böyük istedadın məhsuludur və o, nə qədər populyar olsa belə, yenə öz müəllifinə, qəbir daşında adı qoşa çəkilən Daniel Defoya “borcludur.”

Ədəbi bədii gecənin sonunda müdriyyətə söz verilir. **Müdriyyətin çıxışı.**

Dəyərli qonaqlar, bəşəriyyətin mənəvi dəyərlərindən biri də mütaliyə alışqanlığıdır. Bu insana xas olan ən gözəl keyfiyyətlərdəndir. Hər kəsin kitaba ehtiyacı var. Məncə, mütailə mənəvi dünyamızın qidasıdır. Biz mənəvi dünyamızı zənginləşdirmək üçün Dünya ədəbiyyatımızın incilərindən bəhrələnməliyik. O incilər ki, öz silinməz əsərləri ilə onlar yaddaşlarda həkk olub O incilər ki, biz onları dönə-dönə oxuyuruq. Əsərləri əsirlər, qərinələr boyu böyük bir maraqla oxunan dünya şöhrətli ədiblərimizdən biri də Daniel Defodur. Bu gün görkəmli yazıçı Daniel Defo 355 yaşındadır. Onun əsərləri hələ də öz aktuallığını qorumaqdadır. Böyük istedada sahib olan bu yazıçı elə bir əsər yaratdı, dünya ədəbiyyatına elə bir nəhəng obraz bəxş etdi ki, dünyamız bu əsəri hələ də oxuyur, mənimsəyir. Lap ilk günkü kimi. Bu əsər yeddisindən, yetmiş yeddisinə hər kəsin sevərək oxuyub, rəğbətlə söhbət açdığı “Robinzon Kruzo” dur. Bu əsərin dili, dini, irqi, milliyyəti yoxdur. Sözü gedən bu əsər hər ölkənin, hər dövlətin ortaq dilində yazılıb. Heç də nahaq deyil ki, İngilislər uzun illər Daniel Defonu

İngiltərənin sərvəti adlandırıblar, onun istedadı ilə fəxr ediblər.
Daniel Defo bəşəriyyət var olduqca oxunacaq, yazılacaq və seviləcək, bir sözlə, yaşayacaq şəxsiyyətdir.

**Ədəbiyyat siyahısı**

1. Daniel D. Robinzon Kruzo : Roman. - Bakı : Çaşıoğlu, 2005. - 408 s.
2. Daniel D. Robinzon Kruzo: Roman. - Bakı : Altun kitab, 2007. - 112 s.
3. Daniel D. Robinzon Kruzo : Roman. - Bakı : Şərq – Qərb, 2009. - 476 s.
4. Yusifoğlu B. Qəhrəmanı özündən məşhur yazıçı yaxud, yoxsulluq içərisində ölən "varlı"... // Ədalət. - 2010. - 5 oktyabr. - S. 5.